Həyatda elə insanlar olur ki, qısa ömür yaşasalar da, bu dünyadan köçəndən sonra qəlblərdə silinməz iz, yaddaşlarda xoş xatirələr qoyub gedirlər. Uzun illər ötsə də, belə insanların yoxluqlarına, aralarımızda bir daha görünməyəçəklərinə inanmaq çətin və ağır olur. Heç vaxt unudulmayacaq, həmişə xoş xatirələrlə anılacaq insanlardan biri də, vaxtsız dünyasını dəyişmiş, AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun Azərbaycan İqtisadi və Siyasi Coğrafiyası şöbəsinin böyük elmi işçisi, Coğrafiya üzrə fəlsəfə doktoru Natella Tahir qızı Zəkiryəyevadır. Natella xanım dərin biliyə və hərtərəfli dünyagörüşünə malik olan, sözün əsl mənasında ziyalı bir alim qadın idi. "Azərbaycanda əhali məskunlaşmasının dayaq mərkəzləri şəbəkəsinin inkişafı və modelləşdirilməsinin iqtisadi-coğrafi əsasları" mövzusunda doktorluq işi üzərində tədqiqatlar aparan bu alim qadın onlarla mə-



# Xatirələrdə daima yaşayacaq bir insan

qalənin müəllifi olmuş, bir neçə monoqrafiyanın yazılmasında həmmüəllif kimi iştirak etmişdir. Yüksək mədəniyyətə və insani keyfiyyətlərə malik olan Natella xanım öz xeyirxahlığı, səmimiyyəti və qayğıkeşliyi ilə nəinki iş yoldaşlarının, həmçinin də, ali təhsil ocağında dərs dediyi tələbələrinin də sevimlisinə çevrilmiş, onların hörmətini və rəğbətini qazanmışdır. Səhhətində yaranan ciddi problemlərə baxmayaraq əmək fəaliyyətini davam etdirər, ona müraciət edən tələbələrdən və gənc tədqiqatçılardan öz dəyərli elmi məsləhətlərini və tövsiyyələrini əsirgəməzdi. Ağır xəstəliklə uzun müddət dəyanətlə mübarizə aparan bu qürurlu xanım dözümlülüyü, çətinliklər qarşısında əyilməzliyi ilə də özündən sonra bir mərdlik nişanəsi qoyub getdi. Çəkdiyi ağrı və əzablara baxmayaraq, taleyindən şikayət etmədi, o gözəl və nurlu simasından təbəssüm heç vaxt əskik olmadı. Bu mərd insan özünün təsəliyyə ehtiyacı olduğu halda, ağır günlərimizdə bizlərə (xüsusən də mənə, bir ay öncə eyni xəstəlikdən doğma qardaşımı vaxtsız itirdiyim günlərdə), təsəlli verdi, mənəvi dayaq oldu, səbirli olmağa çağırdı. Arzuları ümman qədər idi, bu geniş qəlbli insanın. Ömür vəfa etsəydi, həyatını sevdikləri və onu sevənlərlə - mehriban ailəsi, ayparçası körpə balası, sadiq dostları ilə birlikdə yaşayardı. Lakin çox əfsuslar olsun ki, aparılan intensiv müalicə tədbirlərinə baxmayaraq, bu ilin iyul ayında Natella xanımın, "bizim Natanın" yaşamaq və yaratmaq eşqi ilə döyünən qəlbi əbədi olaraq susdu, o bu dünyaya vida edərək, haqq dünyasına qovuşdu. Natella xanım kimi dəyərli bir insanı itirmək bütün institut, ələlxüsus da, onun doğma şöbəsinin əməkdaşları üçün çox kədərli və ağrılı oldu.

Əzizimiz Nata, sən heç vaxt unudulmayacaq, qəlblərimizdən silinməyəcək, xatirələrimizdə daima yaşayacaqsan!

Coğrafiya İnstitutunun və doğma şöbəsinin əməkdaşları adından Natella xanımın ailəsinə dərin hüznlə baş sağlığı verir, onlarla birlikdə ağır dərdlərini bölüşürük. Allah rəhmət eləsin! Ruhu şad olsun, qəbri nurla dolsun!

*Zöhrə* Məmmədova
*AMEA akad.H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun Azərbaycan İqtisadi və Siyasi Coğrafiyası şöbəsinin elmi işçisi*